


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

14 may 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 18 (3781)


# Quruculuq təntənəsi



## Böyük Qayıdış yeni həyatın başlanğıcıdır

***Prezident İlham Əliyev:*** *"Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, o zaman Ermənistan xalqının başı dərddə olacaq".*

Mayın 9-10-da Cəbrayıl və Zəngilanda baş tutan açılışlar Azərbaycanın postmüharibə mərhələsində hansı istiqamətdə irəlilədiyini bir daha nümayiş etdirdi. Prezident İlham Əliyevin çıxışları və sakinlərlə görüşləri göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur yeni quruculuq siyasətinin əsas məkanıdır.

Zəngilanda ilk yaşayış kompleksinə köçən ailələrlə görüşdə çıxışını tarixi faktlar üzərində quran Prezident İlham Əliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu torpaqların işğaldan azad olunması idi və Azərbaycan bu vəsiyyəti yerinə yetirdi. Həmin illərlə bugünkü reallıq arasında müqayisə aparan dövlət başçısı diqqətə çatdırıb ki, güclü dövlət modeli qurulmasaydı, Azərbaycan nə torpaqlarını azad edə, nə də bu gün Zəngilanda yeni həyat qura bilərdi.

Prezidentin ən diqqətçəkən mesajlarından biri Ermənistan daxilində revanşist qüvvələrə yönəlmişdi. Dövlət başçısı açıq şəkildə bəyan edib ki, Azərbaycana qarşı nifrət siyasəti aparan dairələr yenidən hakimiyyətə gəlsə, "o zaman Ermənistan xalqının başı dərddə olacaq".

Quruculuq siyasəti barədə isə vurğulayıb ki, Ermənistanın 30 il ərzində dağıtdığı bu torpaqlarda Azərbaycan cəmi beş il ərzində şəhərlər, kəndlər, yollar, məktəblər, elektrik stansiyaları və hava limanları inşa edib. Zəngilanın regional nəqliyyat və logistika mərkəzi olacağını deyən Prezident Bakı–Zəngilan dəmir yolunun tikintisi, Zəngəzur dəhlizi layihəsi, İranla sərhəd bağlantıları və beynəlxalq nəqliyyat marşrutlarının burada birləşməsinin rayonun strateji əhəmiyyətini artırdığını bildirib. Dövlət başçısının fikirlərindən aydın görünürdü ki, yaxın illərdə Zəngilan Azərbaycanın əsas tranzit qovşaqlarından birinə çevriləcək.

Prezident eyni zamanda azad edilmiş ərazilərdə həyata keçirilən iqtisadi layihələrə də toxunub. Su elektrik stansiyaları, aqroparklar, yeni kənd təsərrüfatı layihələri və logistika imkanları bölgənin iqtisadi potensialını artırır. Zəngilanda qurulan infrastruktur artıq təkcə yaşayış məqsədi daşımır. Burada yeni iqtisadi model formalaşdırılır.

Qeyd edək ki, mayın 9-10-da keçirilən tədbirlər çərçivəsində bir sıra açılış və təməlqoyma mərasimləri də baş tutub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunun Şükürbəyli kəndinin və kənddə inşa olunmuş 360 şagird yerlik məktəb binasının açılışında iştirak ediblər. Həmçinin kənddə tikilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olublar, Şükürbəyliyə köçən sakinlərlə görüşüblər.

Səfər çərçivəsində Prezident İlham Əliyev 150 çarpayılıq Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə tanış olub, Soltanlı kəndində "AzərEnerji" ASC-nin 330 kilovoltluq "Şəfəq" yarımstansiyasının açılışında iştirak edib. Mayın 10-da isə Prezident Zəngilan şəhərində inşa olunmuş 104 mənzilli ilk yaşayış kompleksinin açılışında iştirak edib, "Zangilan City Park Hotel"in təməlini qoyub.

# Ümummilli Liderə ehtiram

## Daxili İşlər Nazirliyinin şəxsi heyəti Fəxri xiyabanı ziyarət edib



Mayın 10-da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü tamam oldu.

Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bütün sahələrdə olduğu kimi, ölkəmizdə sabitliyin də möhkəm təməlləri qoyulub, genişmiqyaslı hüquqi islahatlar həyata keçirilib və mühüm uğurlar qazanılıb. Bu gün Azərbaycanın dünyanın ən təhlükəsiz ölkələrindən biri olması məhz Ümummilli Lider tərəfindən əsası qoyulan siyasi kursun uğurla davam etdirilməsinin bariz nəticəsidir. Azərbaycanda əldə edilən bütün uğurlar həm də bu sabitliyin bəhrəsidir.

Azərbaycanda ictimai-siyasi sabitliyi bərqərar edən xalqımızın xilaskar oğlu Heydər Əliyevin xatirəsi daxili işlər orqanlarında da dərin ehtiram hissi ilə anılıb. Bu münasibətlə DİN-in şəxsi heyəti Fəxri Xiyabanda Ümummilli Liderin məzarını ziyarət edib, önünə gül dəstələri qoyub, əziz xatirəsini böyük ehtiramla anıb.

## Ali ziyarət

### Dövlət başçısı və birinci xanım Fəxri xiyabana gediblər

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndərin məzarı önünə əklil qoyublar, əziz xatirəsini ehtiramla yad ediblər. Həmçinin Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsinə ehtiramlarını ifadə edərək məzarı üzərinə gül dəstələri qoyublar. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirəsi də yad olunub.

## Bakı mötəbər tədbirə hazırlaşır

### Prezident görülən işlərlə tanış olub

Prezident İlham Əliyev mayın 12-də Bakı Olimpiya Stadionunun ərazisində mayın 17-22-də keçiriləcək "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə bağlı görülən işlərlə tanış olub.

Qeyd edək ki, tədbir məkanı Bakı Olimpiya Stadionu və onun ətrafında formalaşdırılan ümumi əməliyyat əhatə dairəsi üzrə 53 hektar təşkil edir. Açılış və bağlanış mərasimlərinin təşkil ediləcəyi tədbir zalı 6000 nəfərə qədər iştirakçını qəbul edə biləcək.

## Prezidentlə görüş

### SOCAR-bp əməkdaşlığı müzakirə olunub

Bəzi hallarda neft və qazdan əldə edilən gəlir sosial qeyri-bərabərliyə səbəb olur. Azərbaycanın timsalında isə bu, ölkənin tərəqqisinə kömək edib.

Bu fikirləri Prezident İlham Əliyev mayın 12-də bp şirkətinin baş icraçı direktoru Meq O'Nili qəbul edərkən səsləndirib.

Qeyd edək ki, görüşdə SOCAR-bp əməkdaşlığının perspektivləri müzakirə olunub.

## Liderlər razılaşıblar

### Dövlətimizin başçısı Pakistana gedəcək

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı zamanı liderlər iki ölkə arasındakı qardaşlıq və strateji münasibətləri bir daha təsdiqləyiblər. Baş nazir Prezident İlham Əliyevi Pakistana səfərə dəvət edib. Dövlətimizin başçısı dəvəti məmnuniyyətlə qəbul edib. Liderlər, həmçinin regional proseslər, xüsusilə Yaxın Şərqdəki vəziyyət barədə fikir mübadiləsi aparıblar.


**Əziz xatirəsi əbədi yaşayacaq** 2





**Polislər gənclərlə görüşürlər** 3





**Dələduzların insanlara təsir taktikaları** 4





**Şəhid bacısının idman uğuru** 4




# Respublika Xəbərləri

### Süni intellektlə bağlı qadağa

Süni intellektlə qanunsuz materialların hazırlanıb yayılmasına qadağalar, cərimə və cəzalar təsdiqlənib. Bununla bağlı Prezident İlham Əliyev Cinayət və Cinayət-Prosessual Məcəllələrə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlara dəyişikliyi imzalayıb. Sənədə əsasən, şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları vasitəsilə reallığı əks etdirməyən foto, video və ya audio materiallar hazırlama və ya həmin materialları yayma 3 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

### İnsan alverinə qarşı mübarizə müzakirə olunub

Milli Məclisin mayın 12-də keçirilən iclasında “İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumat”ı müzakirəyə çıxarılıb. Sənədi Azərbaycanın İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatoru, daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov təqdim edib.

### Bu kəndlərin adı dəyişir

Quba rayonunda bəzi kənd və inzibati ərazi dairələrinin adlarının dəyişdirilməsi ilə bağlı qanun layihəsi müzakirəyə çıxarılıb. Layihəyə əsasən, Vladimirovka kəndi Elbir, Alekseyevka kəndi Çinarlı, Timiryazev kəndi isə Bəhrəli adlandırılacaq.

### Xocalıda ağacəkmə

Xocalı rayonunun Ballıca kəndində və Müşfiqabad qəsəbəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə ağacəkmə aksiyaları keçirilib. Ballıca kəndində müxtəlif növ ağac və gül kolları, Müşfiqabadda isə Eldar şamı və zeytun ağacları əkilib.

### Ağdam və Xocavəndə köç

Ağdam və Xocavənd şəhərlərinə növbəti köç karvanları çatıb. Bu mərhələdə Ağdama 41 ailə olmaqla 156 nəfər, Xocavəndə isə 57 ailə olmaqla 206 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlərə yeni mənzillərin açarları təqdim olunub.

### Metropoliten yenidən quruldu

Bakı Metropoliteni “BakuBus” və “Bakı Taksi Xidməti”nin ona qoşulması ilə yenidən təşkil edilib. Yeni qurum metro, avtobus, tramvay və taksi xidmətlərinin vahid mərkəzdən idarə olunmasını, rəqəmsal həllərin tətbiqini və nəqliyyat infrastrukturunun inkişafını təmin edəcək.

### Mina təmizliyi

Azərbaycan Minatəmizləmə Agentliyi mayın 1-dən 11-dək azad olunmuş ərazilərdə 71 piyada əleyhinə mina, 20 tank əleyhinə mina və 440 partlamamış sursatın aşkarlanaraq zərərsizləşdirildiyini açıqlayıb. Bu müddətdə 2129 hektar ərazi minalardan təmizlənib.

### Kanat yolu tikilir

Balakən şəhərində Heydər Əliyev parkında yeni kanat yolunun tikintisinə başlanılıb. Layihəyə əsasən, yeni kanat yolunun uzunluğu 850 metr, hündürlüyü isə 53 metr olacaq. Kanat yolu ilə hərəkət müddəti təxminən 4 dəqiqə təşkil edəcək. Kanatla bir saat ərzində 330 sərnişinin daşınması mümkün olacaq.

### Uşaqlarla bağlı qanun qüvvədədir

Qanunvericiliyə əsasən, uşaqlara qarşı fiziki və psixoloji zorakılığa görə ayrıca inzibati məsuliyyət müəyyən edilib və 200 manat cərimə tətbiq olunacaq. Həmçinin zorakılıq əlamətləri barədə məlumatın aidiyyəti qurumlara verilməməsi də cərimə ilə nəticələnəcək.

### Dərnəgül dayanacağı açılıb

Abşeron dairəvi dəmir yolu xəttində yerləşən “Dərnəgül” dayanacağı istifadəyə verilib və qatarlar artıq burada dayanır. Layihə “Azərbaycan Dəmir Yolları” tərəfindən həyata keçirilib. Yeni dayanacaq Bakı–Xırdalan–Sumqayıt istiqamətində hərəkəti sürətləndirəcək, gediş vaxtını azaldacaq və mərkəz stansiyalarda sıxlığın azalmasına kömək edəcək.

### Cərimə bildirişində yenilik

“Yol hərəkəti haqqında” qanuna edilən dəyişikliyə əsasən, inzibati xətaya görə sürücü nəqliyyat vasitəsinin yanında olmadığı hallarda cərimə qərarının surəti artıq avtomobilin ön şüşəsinə qoyulmayacaq. Belə hallarda inzibati qərarın çatdırılması digər rəsmi qaydalarla həyata keçiriləcək.

# Növbəti sıra baxışı keçirilib

## Nazir seçim turunun növbəti mərhələsinə buraxılan gənclərə tapşırıq və tövsiyələrini verib





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 12-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 166 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən daxili işlər naziri Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# İmişlidə vətəndaş qəbulu

## Müraciətlərin əksəriyyəti yerindəcə həll olunub

Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 6-da və 7-də İmişli rayonunda növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə İmişli rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında İmişli, Füzuli, Beyləqan, Xocavənd, Saatlı, Sabirabad və Kürdəmir rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 264 vətəndaşın



müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 216 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Əziz xatirəsi əbədi yaşayacaq

## DİN-də Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan tədbirlər keçirilib










Müasir Azərbaycanın memarı olan Heydər Əliyevin əziz xatirəsi hər il olduğu kimi bu il də daxili işlər orqanlarında silsilə tədbirlərlə anılıb, dövlət quruculuğunda onun misilsiz xidmətləri minnətdarlıqla xatırlanıb.

Bu münasibətlə Daxili İşlər Nazirliyində anım tədbiri keçirilib. Əvvəlcə Ümummilli Liderin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Sonra Ümummilli Liderin dövlətçilik tariximizdəki əvəzsiz rolu ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri, professor Ədalət Qasımovun geniş məruzəsi dinlənilib.

Daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev isə ölkəmizdə cinayətkarlıqla qətiyyətli mübarizədə, ictimai asayişin qorunmasında Ümummilli Liderin fəaliyyətinə diqqət çəkib. Bu gün ölkəmizdə hüquqi-normativ bazanın formalaşmasında mühüm əhəmiyyətə malik qanunların qəbul edilməsində, dövlətçilik ənənələrinin möhkəmləndirilməsində və inkişafında, ölkəmizin hüquqi, demokratik və dünyəvi dövlət kimi imicinin yüksəldilməsində, eyni zamanda, respublika daxili işlər orqanlarının formalaşmasında, təkmilləşdirilməsində, ölkədə cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini işinin yüksək səviyyədə təşkilində Ümummilli Liderin tarixi xidmətlərindən bəhs edib.

Daha sonra tədbir iştirakçıları dahi şəxsiyyət Heydər Əliyevin ömür yolundan bəhs edən sənədli filmə baxıblar.

Qeyd edək ki, ildönümü tədbirləri çərçivəsində Daxili İşlər Nazirliyinin əməkdaşları, Polis Akademiyasının və Daxili Qoşunların Hərbi İnstitutunun kursantları Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət edərək onun əziz xatirəsini böyük ehtiramla yad ediblər.

Polis Akademiyasının kursantları xüsusi fləşmob təqdim ediblər. Tədbir zamanı “Hər zaman qəlbimizdə...” və “Sonsuzadək izinizdəyik!” adlı kompozisiyalar nümayiş olunub. Anım tədbirləri çərçivəsində həmçinin Daxili İşlər Nazirliyinin əməkdaşları və hərbi qulluqçuları tərəfindən ağacəkmə kampaniyası keçirilib. Ölkənin müxtəlif ərazilərində yerli iqlim şəraitinə uyğun müxtəlif növ ağaclar əkilib.

# Polislər gənclərlə görüşürlər

## Maarifləndirici tədbirlər ölkəboyu davam etdirilir





Azərbaycanın müxtəlif bölgələrində polis əməkdaşlarının iştirakı ilə gənclər və məktəblilər üçün maarifləndirici görüşlər keçirilib.

Azərbaycan Dövlət İqtisad Universitetində təşkil olunan tədbir "Narkomaniya ilə mübarizə və kibercinayətlər" mövzusuna həsr olunub. Görüşdə polis əməkdaşları tələbələrin diqqətini narkomaniyanın yaratdığı təhlükələrə çəkiblər, kibertalamalara qarşı mübarizə üsullarından və bu istiqamətdə görülən tədbirlərdən danışıblar.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialında keçirilən görüş isə "Narkomaniya və erkən nikahlara yox deyək!" mövzusunda baş tutub. Çıxış edən polis əməkdaşları narkomaniya və erkən nikahların cəmiyyətə və gənclərin gələcəyinə vurduğu zərərlərdən bəhs ediblər.

Masallı rayonunun Qızılağac şəhərindəki 1 nömrəli orta məktəbdə də maarifləndirici tədbir keçirilib.

Masallı Rayon Polis Şöbəsinin əməkdaşları narkomaniya və erkən nikahların yaratdığı sosial problemlərdən danışaraq gənclərin sağlam həyat tərzinə yönəlməsinin vacibliyini vurğulayıblar.

Hacıqabul Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə şəhər 3 nömrəli məktəbdə və Meyniman kənd tam orta məktəbində keçirilən görüşlərdə də "Narkomaniyaya yox" mövzusunda çıxışlar edilib, gənclərin zərərli vərdişlərdən uzaq durmasının vacibliyindən danışılıb.

Tərtər Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun Qapanlı kənd tam orta məktəbində şagirdlərlə narkomaniyanın fəsadlarından bəhs edən görüş təşkil olunub.

Görüş zamanı şagirdlərlə gündəlik həyatda qarşılaşa biləcəkləri risklər barədə fikir mübadiləsi aparılıb. Onlara düzgün qərar verməyin əhəmiyyəti, sağlam həyat tərzinin üstünlükləri və mənfi təsirlərə qarşı möhkəm mövqe sərgiləməyin vacibliyi diqqətə çatdırılıb.

Tədbir çərçivəsində internetdə təhlükəsiz davranış məsələlərinə də toxunulub. Polis əməkdaşları kiberdələduzluq halları, tanımadıqları şəxslərlə ünsiyyət zamanı ehtiyatlı olmaq və şəxsi məlumatların qorunması barədə tövsiyələr veriblər.

# Memorandum imzalanıb

## Daxili İşlər Nazirliyi və ADA Universiteti əməkdaşlıq edəcəklər



Mayın 8-də Daxili İşlər Nazirliyi ilə ADA Universiteti arasında əməkdaşlığa dair Memorandum imzalanıb.

Birgə faydalı əməkdaşlığın inkişaf etdirilməsi məqsədi daşıyan Memorandum Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Fazil Quliyev və ADA Universitetinin prorektoru Fariz İsmayılzadə tərəfindən imzalanıb.

Memorandumda tərəflərin tədris proqramları və metodiki vəsaitlərin hazırlanması, seminar, mühazirə, treninq və elmi konfransların təşkili, müasir texnoloji yanaşmaların tətbiqi sahəsində əməkdaşlıq nəzərdə tutulub.

İmzalanma mərasimindən əvvəl keçirilən görüşdə DİN ilə ADA Universiteti arasında əməkdaşlıq perspektivləri və Memorandum çərçivəsində görüləcək işlər də müzakirə olunub.

# Uşaqlar təhdidlə oynayır

## Polislərin tərbiyə metodu bir çox valideynə örnək ola bilər

Bu gün elə nəsil yetişir ki, mobil telefonlarda müxtəlif məzmunlu, hətta zorakılıq aşılayan oyunlarla vaxt keçirə bilir. Bəzən azyaşlı uşağın belə "başını qatmaq", "sakitləşdirmək" üçün valideyn özü bilərəkdən bu təhlükəli tendensiyaya göz yumur.

"Oyundur da, nə olar ki?" cümləsi beləcə bir nəslin taleyinə təsir edir.

Demək olar, bütün psixoloqlar əlindəki telefonda bütün günü "güllələyən", "zombi ovlayan", heyvanları "öldürən" uşağın beyninə ilk zorakılıq toxumunun səpildiyində həmfikirdirlər. Təbii ki, belə uşaq sabah real həyatda problemi ancaq güclə həll etməyə çalışacaq.

Bu məsələ ilə bağlı müraciət etdiyimiz yetkinlik yaşına çatmayanlarla profilaktik iş aparan polis əməkdaşları da narahatlıqlarını gizlətmirlər. Onlar da hesab edirlər ki, valideynlər bir çox halda zorakılıq tərkibli oyunlara ya göz yumurlar, ya da ümumiyyətlə bundan xəbərləri olmur.

Nəsimi RPİ-nin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin inspektoru polis mayoru Yeganə Zeynalova deyir ki, bütün təsir imkanları məktəbdən və polisdən əvvəl valideynin əlindədir. O, valideynlərə uşağın enerjisini düzgün istiqamətə yönəltməyi tövsiyə edir: "Bütün təsir imkanları məktəbdən və polisdən əvvəl valideynin əlindədir. Uşağın enerjisini düzgün istiqamətə yönəltmək lazımdır. Onu idmana yazdırın ki, enerjisini meydanda sərf etsin. Rəqsə, rəsmə yönəldin ki, barmaqları fırça tutsun, virtual silah yox. Xarici dilləri öyrədin, dünyanı tanıtdırın, dar bir ekrana həbs etməyin".

İki qız anası olan polis mayoru uşağın öz işini özü görməli olduğu qənaətindədir: "Valideyn evdə olsa da, olmasa da uşaq bir çox halda öz işini özü görməlidir. Valideyn bacardıqca övladını faydalı işlərə cəlb etməli, zəhmətə öyrəşdirməlidir".

Uşaqların istifadə etdiyi telefonlara valideyn müvafiq proqramla çox asanlıqla nəzarət edə biləcəyini söyləyən Suraxanı RPİ-nin inspektoru polis kapitanı İlahə Balayeva özü də bu üsuldan istifadə etdiyini bildirir: "Hər gün üçün müəyyən vaxt məhdudiyyəti təyin edirəm. Müddət bitdikdə telefon bloklanır və yalnız mənim icazəm olduqda, yəni öz telefonum vasitəsilə onu blokdan çıxara bilirəm".

O, həmçinin qeyd edir ki, övladlarını sosial şəbəkələrdən uzaq saxlayır, onları idmana və təhsilə yönəldir: "Oğlum cüdo ilə məşğul olur və artıq naliyyətləri ilə hər birimizi sevindirir. Uşaqlarımın məktəbdə davranışını, müəllim və şagirdlərlə münasibətlərini daim nəzarətdə saxlayırıq".

Bu nümunələr bir daha göstərir ki, sağlam və düşünən bir nəslin təməli məhz uşaqlıqdan qoyulur. Uşağa verilən hər bir oyuncaq, öyrədilən hər bir davranış və deyilən hər bir söz onun gələcək həyatına təsir edir.

Seçim, əlbəttə, valideynindir. Amma bu seçim eyni zamanda bir məsuliyyətdir, sabahın sağlam və düşüncəli vətəndaşını yetişdirmək məsuliyyəti.

*R.Mehtiyev*

# Arzuolunmaz qohum

## Qarətçini polis ifşa edib

Xətai rayonunda yerləşən evlərin birindən naməlum şəraitdə 15000 manat nağd pul və 5000 manat dəyərində qızıl-zinət əşyaları oğurlanıb. Xətai RPİ 35-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən zərərçəkənin qohumu olan 30 yaşlı İ.Hüseynov müəyyən edilərək saxlanılıb. Araşdırmalarla müəyyən olunub ki, o, müxtəlif vaxtlarda evə daxil olaraq hissə-hissə pul və qızıl-zinət əşyalarını oğurlayıb.

Faktla bağlı cinayət işi başlanıb. Araşdırma aparılır.

# Narkotik əkən "bağban"

## Onun həyətindən 198 ədəd çətənə bitkisi aşkarlanıb



Balakəndə polis narkotiklərin qanunsuz dövriyyəsinə qarşı əməliyyat keçirib. Tədbirlərlə narkotik tərkibli bitkiləri kultivasiya etməkdə şübhəli bilinən əvvəllər də analoji əmələ görə məhkum olunmuş 45 yaşlı S.Şərifov Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. Ona məxsus bağ sahəsinə baxış zamanı 198 ədəd çətənə bitkisi aşkar edilib. Saxlanılan şəxs narkotik tərkibli bitkilərə aqrotexniki qaydada xüsusi qulluq göstərdiyini bildirib.

Faktla bağlı cinayət işi başlanılıb, S.Şərifov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Saxlanılma və həbs

## Bu iki anlayışın mahiyyəti, tətbiqi qaydaları və fərqli nəticələri

**Cəmiyyətdə "saxlanılma" və "həbs" anlayışları tez-tez eyni məna daşıyan ifadələr kimi qəbul olunur. Bir çox hallarda polis tərəfindən saxlanılan şəxsin artıq həbs edildiyi düşünülür. Halbuki qanunvericiliyə əsasən bu iki anlayış tamamilə fərqli hüquqi prosedurlardır və onların tətbiq qaydası, məqsədi, müddəti və hüquqi nəticələri bir-birindən fərqlənir.**

Qanunvericiliyə görə "saxlanılma" şəxsin cinayət törətməsinə əsaslı şübhələr olduqda onun azadlığının qısa müddətə müvəqqəti məhdudlaşdırılmasıdır. Bu tədbir əsasən istintaqın ilkin mərhələsində tətbiq olunur və şəxsin hadisə yerindən yayınmasının, sübutları gizlətməsinin və ya istintaqa mane olmasının qarşısını almaq məqsədi daşıyır. Saxlanılma polis və ya istintaq orqanı tərəfindən həyata keçirilə bilər və bu mərhələdə şəxs hələ məhkəmə qərarı ilə təqsirli hesab edilmir.

Həbs isə daha ciddi prosessual tədbirdir. Həbs qətimkan tədbiri yalnız məhkəmə qərarı əsasında seçilir və şəxsin müəyyən müddət ərzində istintaq təcridxanasında saxlanılmasını nəzərdə tutur. Məhkəmə belə qərar qəbul edərkən şəxsin qaçmaq ehtimalını, şahidlərə təsir göstərmək riskini, sübutların məhv edilməsini və ya yenidən cinayət törətmək ehtimalını nəzərə alır. Bu baxımdan hər saxlanılan şəxsin həbs olunması zəruri deyil. Bəzi hallarda şəxs saxlanıldıqdan sonra sərbəst buraxıla, barəsində alternativ qətimkan tədbiri seçilə və ya ümumiyyətlə cinayət məsuliyyətinə cəlb edilməyə bilər.

Əsas yanlış anlaşılmalardan biri də şəxsin polis tərəfindən saxlanıldığı andan etibarən artıq cinayətkar kimi qəbul edilməsidir. Halbuki qanunvericilikdə təsbit olunan təqsirsizlik prezumpsiyasına əsasən məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadan heç bir şəxs məhkum hesab edilə bilməz. Bu prinsip həm hüquq-mühafizə orqanlarının fəaliyyətində, həm də ictimai münasibətlərdə qorunmalı olan əsas hüquqi prinsiplərdəndir.

Saxlanılma və həbs prosesində polis əməkdaşlarının davranışı xüsusi əhəmiyyət daşıyır. Polis əməkdaşı xidməti fəaliyyət zamanı qanunçuluq, humanizm, insan hüquq və azadlıqlarına hörmət prinsiplərinə əməl etməlidir. Şəxs saxlanılarkən ona qarşı kobud davranış, ləyaqəti alçaldan rəftar və əsassız fiziki müdaxilə yolverilməzdir. Hadisə zamanı polis əməkdaşı ilk növbədə özünü təqdim etməli, saxlanılmanın səbəbini izah etməli və qanuni tələbləri aydın şəkildə çatdırmalıdır.

Fiziki güc, xüsusi vasitələr və ya məcburetmə tədbirləri yalnız zəruri hallarda və qanunla müəyyən edilmiş çərçivədə tətbiq oluna bilər. Şəxs müqavimət göstərmədiyi halda ona qarşı sərt müdaxilə hüquq pozuntusu hesab oluna bilər. Eyni zamanda polis əməkdaşı emosional davranışdan, şəxsi münasibətlərin xidməti fəaliyyətə təsir etməsindən və vətəndaşı əvvəlcədən təqsirli kimi təqdim etməkdən çəkinməlidir.

Saxlanılan və ya həbs edilən şəxslə davranış zamanı etik prinsiplərə riayət olunması polis-vətəndaş münasibətlərində qarşılıqlı etimadın qorunması baxımından mühüm rol oynayır. Hüquq-mühafizə orqanlarının peşəkarlığı yalnız cinayətlərin açılması ilə deyil, eyni zamanda proses zamanı qanunçuluğun və insan hüquqlarının təmin olunması ilə də qiymətləndirilir. Çünki hüquqi dövlətdə əsas məqsədlərdən biri cinayətkarlıqla mübarizə aparmaq, digəri isə hər bir şəxsin hüquq və azadlıqlarını qorumaqdır.

*F. Məmmədova*

# Cibgirdən narkotik tapıldı

## Qanun qarşısında cavab verəcək

Sabunçu rayonu ərazisində bir nəfər polisə müraciət edərək ictimai nəqliyyatdan istifadə etdiyi zaman cibindən olan mobil telefonunun oğurlandığını bildirib.

Polis əməkdaşlarının keçirdiyi əməliyyat tədbirləri nəticəsində cibgirlikdə şübhəli bilinən 48 yaşlı A.Hüseynov müəyyən olunaraq saxlanılıb. Həmçinin ondan psixotrop maddə olan metamfetamin də aşkarlanıb.

Araşdırmalar davam etdirilir.

# Xidmətdə emosional tarazlığın qorunması

## Psixoloji cəhətdən dözümlü polis hər zaman bir addım öndədir

**Cəmiyyətin təhlükəsizliyinin təmin olunması, ictimai asayişin qorunması və insanların hüquqlarının müdafiəsi polis əməkdaşlarının üzərinə böyük məsuliyyət qoyur. Polis xidməti yalnız fiziki hazırlıq deyil, eyni zamanda yüksək psixoloji dayanıqlıq tələb edən peşələrdən biridir. Gündəlik olaraq riskli hadisələrlə üzləşmək, müxtəlif xarakterli insanlarla ünsiyyətdə olmaq, ağır cinayətləri araşdırmaq və anında qərar qəbul etmək əməkdaşlarda əlavə gərginlik yarada bilir. Məhz buna görə də psixoloji dözümlülüyün qorunması polis fəaliyyətinin ayrılmaz hissəsi hesab olunur.**

Polis əməkdaşının peşə fəaliyyəti bəzən saniyələr içində düzgün qərar qəbul etməyi tələb edir. Belə məqamlarda əməkdaşın emosiyalarını idarə etməsi, soyuqqanlı davranması və hadisəyə peşəkar yanaşması mühüm əhəmiyyət daşıyır. Psixoloji dayanıqlıq yalnız əməkdaşın şəxsi sağlamlığını qorumaq üçün deyil, həm də xidmətin keyfiyyətini artırmaq baxımından vacibdir. Emosional yüklənməyə davamlı əməkdaş çətin situasiyalarda daha dəqiq düşünür, vətəndaşlarla ünsiyyətdə daha təmkinli davranır və xidmət fəaliyyətini daha effektiv şəkildə həyata keçirir.

### Xidmətdə stres yaradan amillər

Polis əməkdaşlarının üzləşdiyi əsas çətinliklərdən biri yüksək emosional gərginlikdir. Gecə naryadları, təhlükəli əməliyyatlar, ailədən uzaq qalmaq və insan faciələri ilə tez-tez qarşılaşmaq psixoloji yüklənməyə səbəb ola bilir. Bundan əlavə, cəmiyyətin polis əməkdaşından gözləntilərinin yüksək olması da əlavə məsuliyyət yaradır. Bəzən əməkdaş uzun müddət davam edən stres nəticəsində yorğunluq, diqqət dağınıqlığı, emosional gərginlik və motivasiya azalması ilə qarşılaşır. Bu hallar vaxtında idarə olunmadıqda həm əməkdaşın sağlamlığına, həm də xidmət fəaliyyətinə mənfi təsir göstərə bilər. Buna görə də psixoloji sağlamlığın qorunması müasir polis idarəçiliyində prioritet məsələlərdən biri hesab olunur.

### Psixoloji dözümlülük niyə vacibdir?

Psixoloji dözümlülük polis əməkdaşına ən çətin şəraitdə belə peşəkar davranışı qorumağa kömək edir. Hadisə yerində yaranan gərginlik zamanı emosional sabitliyi saxlamaq həm əməkdaşın şəxsi təhlükəsizliyi, həm də vətəndaşlarla düzgün münasibətin qurulması baxımından böyük əhəmiyyət daşıyır. Dayanıqlı psixoloji vəziyyət əməkdaşın qərarvermə bacarığını artırır, stresli situasiyalarda soyuqqanlı qalmasına kömək edir, kollektiv daxilində münasibətləri gücləndirir, tükənmişlik sindromuna rəvac vermir və vətəndaşlarla ünsiyyətdə təmkin formalaşdırır. Psixoloji baxımdan güclü olan əməkdaş xidmət zamanı qarşılaşdığı çətinlikləri daha sağlam şəkildə qəbul edir və onların öhdəsindən gəlməyi bacarır.

### Böhran anlarında düzgün qərarvermə

Stresin düzgün idarə olunması polis əməkdaşlarının həm xidmət keyfiyyətinə, həm də şəxsi həyatına müsbət təsir göstərir. Mütəxəssislər hesab edirlər ki, davamlı psixoloji gərginliyin qarşısını almaq üçün əməkdaşın istirahət rejimi, sağlam həyat tərzi və emosional balansı qorunmalıdır. Müntəzəm fiziki fəaliyyət, idmanla məşğul olmaq, kifayət qədər yuxu və düzgün qidalanma insanın psixoloji vəziyyətinə müsbət təsir göstərən əsas amillərdəndir. Bununla yanaşı, əməkdaşın ailə və kollektiv dəstəyi hiss etməsi də onun psixoloji dayanıqlığını artırır. Bir çox hallarda peşəkar psixoloq dəstəyi də mühüm rol oynayır.

### Kollektiv mühitin rolu

Psixoloji maarifləndirmə təlimləri, stresin idarə olunması üzrə seminarlar və fərdi məsləhətləşmələr əməkdaşların emosional yükünü azaltmağa kömək edir. Müasir dövrdə inkişaf etmiş polis strukturlarında psixoloji hazırlıq fiziki hazırlıq qədər vacib hesab olunur.

Sağlam kollektivdə işgüzar münasibətlər polis əməkdaşlarının psixoloji vəziyyətinə birbaşa təsir edir. Qarşılıqlı hörmət, həmrəylik və komanda ruhu əməkdaşın özünü daha güvənli hiss etməsinə səbəb olur. Xüsusilə çətin əməliyyat və hadisələrdən sonra əməkdaşların bir-birinə mənəvi dəstək göstərməsi stresin azalmasına kömək edir.

Rəhbər heyətin əməkdaşların psixoloji vəziyyətinə diqqətlə yanaşması da mühüm amillərdəndir. Əməkdaşın problemlərinin dinlənilməsi, motivasiyaedici münasibət və ədalətli yanaşma kollektivdə sağlam iş mühiti formalaşdırır.

### Güclü polis – güclü psixologiya

Polis peşəsi yalnız qanunların keşiyində dayanmaq deyil, eyni zamanda insan taleləri ilə işləmək məsuliyyətidir. Bu məsuliyyəti uğurla yerinə yetirmək üçün polis əməkdaşı həm fiziki, həm də psixoloji baxımdan hazırlıqlı olmalıdır. Müasir dövrdə psixoloji dözümlülük peşəkar polis obrazının əsas xüsusiyyətlərindən biri kimi qəbul edilir. Emosional sabitliyini qoruyan və çətin anlarda təmkin nümayiş etdirən əməkdaş cəmiyyətin etimadını daha çox qazanır. Psixoloji sağlamlığın qorunmasına göstərilən diqqət isə daha güclü, peşəkar və dayanıqlı xidmətin formalaşmasına stimul yaradır.

*Aytən Tahirova*

# Polislərin xüsusi taktiki yarışı

## Yarış Ümummilli Liderin əziz xatirəsinə həsr olunub



DİN-in Əlahiddə Çevik Polis Alayının təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş xüsusi taktiki yarış keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər və dövlət himnini səsləndiriblər.

Daha sonra yarışın rəsmi açılış mərasimi keçirilib.

Çıxış edənlər ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində müstəsna xidmətlərindən bəhs edərək bildiriblər ki, onun müəyyən etdiyi siyasi kurs bu gün də ölkənin inkişafına və sabitliyinə xidmət edir.

Yarışda Əlahiddə Çevik Polis Alayı, Bakı Şəhər Baş Polis İdarəsi, Dəmir Yolu Nəqliyyatında Polis İdarəsi və Hava Nəqliyyatında Polis İdarəsinin əməkdaşlarından ibarət ümumilikdə 27 komanda iştirak edib. Komandalar müxtəlif taktiki tapşırıqlar üzrə peşəkarlıq, çeviklik və operativ fəaliyyət bacarıqlarını nümayiş etdiriblər.

Sonda qalib komandaların mükafatlandırılması mərasimi keçirilib. Fərqlənən iştirakçılar kubok, diplom və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

# Şəhid bacısının idman uğuru

## Polis əməkdaşı çempionatdan medalla qayıdıb



Mayın 9-10-u tarixlərində Gürcüstanın Batumi şəhərində kyokuşin karate üzrə Avropa çempionatı keçirilib.

Çempionatda 22 ölkədən 500-ə yaxın idmançı iştirak edib. Azərbaycanı təmsil edən idmançılardan biri Bakı Şəhər Baş Polis İdarəsinin Əməliyyat Statistik və İnformasiya İdarəsinin əməkdaşı polis serjantı Solmaz Zeynallı olub. O, 59 kq çəki dərəcəsində Ukraina və Ruminiya idmançılarına qalib gələrək yarımfinala qədər yüksəlib. Lakin bu mərhələdə litvalı döyüşçünü məğlub edə bilməyib və çempionatı bürünc medalla başa vurub.

Qeyd edək ki, polis serjantı S.Zeynallı Vətən müharibəsinin şəhidi, "İgidliyə görə", "Vətən uğrunda" və "Füzulinin işğaldan azad olunmasına görə" medalları ilə təltif edilmiş Tural Zeynalovun bacısıdır.

# Növbəti zona yarışları keçirilib

## Qalib komandalar bəllidir

Daxili işlər orqanlarının əməkdaşları arasında silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə zona yarışları davam edir.

7–8 may tarixlərində Sumqayıt şəhər Olimpiya İdman Kompleksində təşkil olunan yarışda 10 komandanın tərkibində 41 əməkdaş iştirak edib.

Yarışın yekun nəticələrinə əsasən komanda hesabında Sumqayıt ŞPİ birinci, Zəngilan RPŞ ikinci, Xızı RPŞ isə üçüncü yerə layiq görülüb.

Yardımlıda keçirilən digər zona yarışında isə Şirvan, Hacıqabul, Saatlı, Sabirabad, İmişli, Beyləqan, Füzuli, Cəbrayıl, Lənkəran, Biləsuvar, Salyan, Neftçala, Cəlilabad, Masallı, Yardımlı, Lerik, Astara və Xocavənd rayonlarının polis əməkdaşları mübarizə aparıblar. Yarışda ümumilikdə 84 əməkdaş iştirak edib.

Komanda hesabında Lənkəran birinci, Yardımlı ikinci, Sabirabad isə üçüncü yeri tutub.

Qaliblər mükafatlandırılıb.

# Dələduzların insanlara təsir taktikaları

## Müasir üsullar, gizli metodlar

Texnologiyanın sürətli inkişafı ilə yanaşı, dələduzluq üsulları da daha mürəkkəb və təhlükəli formaya keçib. Əvvəllər real həyatda rast gəlinən fırıldaq hallarına bu gün internet üzərindən həyata keçirilən kiberdələduzluq da əlavə olunub. Müasir dövrdə dələduzlar yalnız texniki vasitələrdən deyil, psixologiya elmindən də peşəkar şəkildə istifadə edirlər. Onlar insanların qorxu, maraq, təşviş, inam və qazanc istəyi kimi emosiyalarına təsir göstərərək qarşı tərəfi manipulyasiya etməyə çalışırlar. Məhz buna görə də vətəndaşların maarifləndirilməsi və diqqətli davranışı bu cür halların qarşısının alınmasında mühüm rol oynayır.

### İnsan emosiyalarının manipulyasiyası

Fırıldaqçılar insanları aldatmaq üçün ilk növbədə psixoloji təsir üsullarına üstünlük verirlər. Onlar qarşı tərəfdə təcili qərar vermək hissi yaradır, insanı qorxudur və ya ona böyük qazanc vəd edirlər. Bir çox hallarda dələduz özünü bank əməkdaşı, dövlət qurumu nümayəndəsi və ya tanınmış şirkətin təmsilçisi kimi təqdim edir. Məqsəd qarşı tərəfdə etibar formalaşdırmaq və onu düşünmədən addım atmağa sövq etməkdir.

Dələduzlar ən çox insanların emosional vəziyyətindən istifadə etməyə çalışırlar. "Kartınız bloklanacaq", "hesabınız təhlükədədir" və ya "siz böyük məbləğdə pul udmusunuz" kimi ifadələr insanda həyəcan və təşviş yaradır. Həmin anda insan soyuqqanlı düşünməkdə çətinlik çəkir və bəzən şəxsi məlumatlarını özü təqdim edir.

Digər geniş yayılmış üsullardan biri isə etibar qazanmaqdır. Dələduzlar sosial şəbəkələrdə saxta profillər yaradır, tanınmış qurumların loqolarından istifadə edir və vizual baxımdan olduqca peşəkar görünən ismarıclar göndərirlər. Bəzi hallarda onlar qarşı tərəflə uzun müddət ünsiyyət quraraq inam formalaşdırmağa çalışırlar. Bu üsul xüsusilə internet üzərindən həyata keçirilən kiberdələduzluq hallarında geniş tətbiq olunur.

### Onlayn və real həyatda rast gəlinən fırıldaq üsulları

Müasir dövrdə ən çox rast gəlinən dələduzluq növlərindən biri onlayn fırıldaqçılıqdır. Sosial şəbəkələrdə saxta elanların yerləşdirilməsi, internet mağazaları adı ilə vətəndaşlardan öncədən ödəniş alınması, bank kartı məlumatlarının ələ keçirilməsi və saxta investisiya təklifləri geniş yayılıb.



Telefon zəngləri vasitəsilə həyata keçirilən dələduzluqlar da ciddi təhlükə olaraq qalır. Fırıldaqçılar vətəndaşlara zəng edərək özlərini bank və ya hüquq-mühafizə orqanı əməkdaşı kimi təqdim edir, müxtəlif bəhanələrlə kart məlumatlarını və təsdiq kodlarını əldə etməyə çalışırlar.

Real həyatda isə saxta sənədlərdən istifadə, yalan vədlər, işə düzəltmə adı ilə pul tələb olunması və müxtəlif xidmətlər ilə insanları aldatmaq kimi hallara rast gəlinir. Xüsusilə yaşlı insanlar və informasiya təhlükəsizliyi barədə məlumatı az olan şəxslər daha çox risk qrupuna daxildir.

### Təhlükələrdən qorunma yolları

Dələduzluq hallarından qorunmağın ən effektiv yolu diqqətli və məlumatlı olmaqdır. Şəxsi məlumatlar, bank kartı nömrələri və təsdiq kodları heç bir halda naməlum şəxslərə təqdim edilməməlidir. Şübhəli zəng və mesajlara qarşı ehtiyatlı yanaşmaq, linklərə daxil olmadan əvvəl mənbəni yoxlamaq vacibdir.

Vətəndaşlar unutmamalıdır ki, bank əməkdaşları və dövlət qurumları telefon vasitəsilə məxfi məlumat tələb etmirlər. Hər hansı şübhəli vəziyyətlə qarşılaşdıqda isə rəsmi qurumlarla birbaşa əlaqə saxlamaq daha doğru addımdır.

Müasir dövrdə informasiya təhlükəsizliyi yalnız texniki yox, həm də psixoloji hazırlıq məsələsidir. İnsan nə qədər diqqətli və məlumatlı olarsa, dələduzların təsir üsullarına aldanma ehtimalı bir o qədər azalır. Maarifləndirmə və ictimai diqqət isə cəmiyyətin bu təhlükələrdən qorunmasında əsas amillərdən biri hesab olunur.

*Aytən Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik